**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏZİZ NESİN VƏ 60-80-Cİ İLLƏR AZƏRBAYCAN SATİRİK NƏSRİ (SEYFƏDDİN DAĞLI VƏ ANAR YARADICILIĞI ƏSASINDA)

İxtisas: 5717.01 – Türk xalqları ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Maya Murad qızı Həsənli**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Məmməd İrac oğlu Əliyev** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Jalə Fazil qızı Əliyeva** |
| | filologiya elmləri doktoru, dosent<br>**Nurlanə Musa qızı Mustafayeva** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Aygün Məhərrəm qızı Yusubova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: ______________ | AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor<br>**İsa Əkbər oğlu Həbibbəyli** |
| Dissertasiya şurasının elmi katibi: ______________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İsmixan Məhəmməd oğlu Osmanlı** |
| Elmi seminarın sədri: ______________ | filologiya elmləri doktoru, dosent<br>**Almas Qasım qızı Binnətova** |

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Əziz Nesin (1915-1995) Cümhuriyyət dövrü türk ədəbiyyatının ən məhsuldar yazıçılarından biri, ən böyük satira ustasıdır. Hər üç ədəbi növün müxtəlif janrlarında yazdığı çoxsaylı əsərləri ilə yarım əsrdən çox xalqına xidmət etmiş, satirik qələmi vasitəsilə türk ədəbiyyatını zənginləşdirmişdir. Türkiyə ədəbiyyatı tarixində yeni tipli satiranı ilk dəfə Əziz Nesin tam olaraq əsas yaradıcılıq üslubu kimi mənimsəmiş, zirvəyə qaldırmış və bütövlükdə dünya ədəbiyyatı tarixində ən böyük satira ustalarından biri kimi yer tutmuşdur. Gənc yaşlarından bədii yaradıcılığa başlayan Əziz Nesin bütün ömrü boyu xalqın maariflənməsi, inkişafı, ictimai-siyasi qüsurlardan ölkəsinin təmizlənməsi uğrunda sözün həqiqi mənasında çətin mübarizə aparmışdır. 1000-dən çox (çap olunmuş) hekayəsi, 11 romanı, 20-yə yaxın pyesi, böyüklər üçün nağılları, uşaq kitabları, şeirləri olsa da, satira ustasının öz təbirincə desək, sanki yoxmuş kimi ədəbi tənqiddən uzun müddət kənar saxlanılmış, yaradıcılığı elmi araşdırmalara geniş cəlb edilməmişdir. Baxmayaraq ki, Əziz Nesin hər zaman ən çox oxunan və kitabları ən çox satılan yazıçılardan biri və zaman-zaman birincisi olmuşdur. Əziz Nesin təkcə Türkiyədə deyil, bütövlükdə dünya ədəbiyyatında tanınmış və sevilmişdir. Əsərlərində toxunduğu məsələlər hətta bu günümüz üçün yazılıbmış kimi ciddiliyini və aktuallınını qoruyub saxlayır.

Əziz Nesinin əsərləri hələ sovet dövründən Azərbaycan dilinə çevrilmiş, azərbaycanlı oxucular tərəfindən sevilərək haqqında maraqlı fikirlər söylənilmişdir. Seçmə hekayələri[1], “İndiki uşaqlar möcüzədir”[2], “Futbol kralı”[3] romanı, “Taxtalı köydən məktublar”[4] povesti və “Bir sürgünün xatirələri”[5] adlı xatirə yazısı Azərbaycan dilində SSRİ zamanında işıq üzü görmüş əsərləridir. Müstəqillik illərimizdə də Əziz

[1] Nesin, Ə. Hekayələr / Ə.Nesin. – Bakı: Uşaqgəncnəşr, –1962. – 147 s.;
Nesin, Ə. Kor döyüşü / Ə.Nesin. – Bakı: Azərnəşr, – 1968. – 230 s.
[2] Nesin, Ə. İndiki uşaqlar möcüzədir / Ə.Nesin. – Bakı: Gənclik, – 1972. – 149 s.
[3] Nesin, Ə. Futbol kralı / Ə.Nesin. – Bakı: Gənclik, – 1988. – 224 s.
[4] Nesin, Ə. Taxtalı köydən məktublar / Ə.Nesin. – Bakı: Yazıçı, 1981. – 124 s.
[5] Nesin, Ə. Hekayələr / Ə.Nesin. – Bakı: Azərnəşr, – 1985. – 162 s.

Nesin yaradıcılığına olan maraq azalmamış Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı çərçivəsində Əziz Nesinin əsərləri də diqqətdə saxlanılaraq "Seçilmiş əsərləri"[6] başlığı ilə hekayələrindən seçmələr və "Taxtalı köydən məktublar" povesti 2006-cı ildə Azərbaycan oxucularının mütaliəsinə təqdim olunmuşdur. Daha sonralar kiril qrafikası ilə çap olunmuş digər kitabları da müxtəlif illərdə latın qrafikasında təkrar nəşr edilmişdir. Eyni zamanda yeni hekayələri, o cümlədən şeir nümunələri də son illərdə Azərbaycan dilinə çevrilərək kitab halında, yaxud mətbuat orqanlarında dərc olunmuşdur.

Əziz Nesinin dramaturji əsərlərindən "Bura gəlin" ("Bir az gelirmisiniz?"(1958) adlı pyesi 1965-ci ildə SSRİ-də ilk dəfə Gəncə şəhərində Nəsir Sadıqzadənin tərcüməsi və quruluşçu rejissorluğu ilə tamaşaya qoyulmuşdur. Pyes daha sonralar dəfələrlə teatr repertuarlarımızda yer almış, "Sizi olarmı?" adı ilə də tərcümə olunaraq səhnələşdirilmişdir. Sənətkarın yaradıcılığında xüsusi yer tutan "Toros canavarı" (1957) adlı hekayəsinin təsiri ilə 1963-cü ildə qələmə aldığı eyniadlı komediyası 1970-1971-ci il teatr mövsümündə yenə də Nəsir Sadıqzadənin rejissorluğu ilə C.Məmmədquluzadə adına Naxçıvan Musiqili dram teatrında səhnəyə qoyulmuşdur. Əziz Nesinin "Öldür məni, canciyər" ("Öldür beni, canikom") komediyası da Azərbaycan dilinə çevrilərək aktyorlarımız tərəfindən teatr səhnəsində göstərilən əsərlərindəndir.

2016-cı ildə Svetlana Turanın tərcüməsi ilə hazırlanan "Belə gəlmiş, belə getməz"[7] adlı kitab Əziz Nesin haqqında azərbaycanlı oxucuları üçün fikir formalaşdıran əsərlər sırasına daxil olmuş olur. Bunlardan əlavə, Azərbaycanda müxtəlif illərdə tərtib olunmuş dünya ədəbiyyatı və türk xalqları istiqamətli antologiyalarda[8] Əziz Nesinin bədii əsərlərinə də yer verilmişdir. Bütün bu sadaladıqlarımız Əziz Nesin

[6] Nesin, Ə. Seçilmiş əsərləri / Ə.Nesin. – Bakı: Şərq-Qərb, – 2006. – 240 s.
[7] Nesin, Ə. Belə gəlmiş, belə getməz. Bioqrafiya, gündəlik və xatirələr. ("Xan" xatirə ədəbiyyatı silsiləsindən) / Ə.Nesin. – Bakı: Xan, – 2016. – 216 s.
[8] Türk xalqları ədəbiyyatı antologiyası: [3 cilddə] / baş red. S.Bektaşi. – Bakı: Şərq-Qərb, – c.1. – 2013. – 464 s.; Türk hekayələri: 38 imza (antologiya). – Bakı: Kitab klubu, – 2015. – 376 s.

yaradıcılığının Azərbaycanda elmi araşdırmalara cəlb edilməsini zəruri edən şərtlərdəndir.

Qapalı SSRİ dövründə qardaş ölkə Türkiyə ilə Azərbaycan arasında ədəbi-mədəni əlaqələrin gedişatı XX əsrin 60-cı illərindən başlayaraq canlanmağa başlamışdır. Bu illərdə azərbaycanlı yazıçıların Türkiyəyə ezam olunması, qarşılıqlı olaraq Əziz Nesinin xaricə çıxışına icazə verilməsi və bu fürsət nəticəsinə Azərbaycana olan səfəri ədibin əsərlərinin Azərbaycan dilinə tərcümə və tanıdılma prosesinə təkan vermiş oldu. Əziz Nesini azərbaycanlı oxuculara tanıdan ilk ədib yazıçı-dramaturq Seyfəddin Dağlı (1921-1983) olmuşdur. Seyfəddin Dağlı 1960-1980-ci illər satirik nəsrimizdə xüsusi imzası olan sənətkardır. Əziz Nesin yaradıcılığına olan heyranlığı onu "Türkiyə novellaları" silsiləsini yazmağa sövq etmişdir. Eyni zamanda iki qardaş ölkənin ictimai mühitinin oxşarlığı hər iki satirik sənətkarın yaradıcılığında paralel və oxşar mövzuların tənqid hədəfinə çevrildiyini izləməyimizə rəvac verir.

XX əsrin 60-cı illəri SSRİ-yə daxil olan digər dövlətlər kimi Azərbaycanda da ədəbi-nəzəri fikirdə aydınlanmaya, milli düşüncənin təbliğinə doğru yol alan ilk təşəbbüslərlə yadda qaldı. Bu illərdə yaranan ədəbiyyatımız, o cümlədən satirik nəsrimiz mövcud sosial, ictimai qüsurların tənqidini özündə bədii şəkildə əks etdirir. Sözügedən zaman kəsimində bu missiyanı xalq yazıçısı Anar daşımışdır. Bu cəhətdən biz Anarın yaradıcılığında da Əziz Nesinin çoxsahəli mövzu dairəsinə daxil olan məsələlərin tənqidini paralel şəkildə müşahidə edirik. Bütün bunlar tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

Azərbaycanda Əziz Nesin yaradıcılığı haqqında yuxarıda qeyd etdiyimiz tərcümə kitablarının ön sözlərində, xüsusilə Seyfəddin Dağlı və akademik Nizami Cəfərov[9] tərəfindən fikirlər söylənilmişdir. Ölkəmizdə Əziz Nesin yaradıcılığına həsr olunmuş ilk dissertasiya səviyyəli elmi araşdırma 1985-ci ildə Əhməd Nəhmədov tərəfindən yazılmış "Əziz Nesinin dramaturgiyasında ənənə və novatorluq"[10] mövzusunda fəlsəfə doktorluğu işi olmuşdur. Əziz Nesinlə şəxsən tanışlığı, o cümlədən yaradıcılığından tərcümələr müəllifi olan professor Aqşin Babayev "Cümhuriyyət dövrü türk dramaturgiyasının yaradıcılıq

---

[9] Nesin, Ə. Seçilmiş əsərləri / Ə.Nesin. – Bakı: Çaşıoğlu, – 2004. – 472 s.

[10] Нахмедов, А.П. Традиции и новаторство в драматургии Азиза Несина: / дис. канд. фил. наук. /– Баку, 1985. – 234 с.

problemləri: 1923-1983 (sosial motivlər)”[11] adlı doktorluq dissertasiyasında Əziz Nesinin komediyalarını tədqiq etmiş, “Toros canavarı”, “Nəsə elə, Met”, “Üç qaragöz oyunu”, “Bura gəlin” əsərlərindəki sosial problemlərin tənqidi məsələlərini təhlilə cəlb etmişdir. Qeyd etməliyik ki, Aqşin Babayev “Nazim Hikmət qalaktikası”[12] adlı kitabında böyük türk şairinin 1963-cü ildə Mirzə Fətəli Axundzadənin 150 illik yubileyi ilə bağlı Bakıda söylədiyi çıxış nitqinin səs yazısının mətnini təqdim etmiş, Əziz Nesinin böyük Azərbaycan satiriki Mirzə Ələkbər Sabirin “Qorxuram” satirasını türk dilinə tərcümə etməsindən bəhs etmişdir. Aqşin Babayev adıçəkilən kitabında Əziz Nesinlə bağlı xatirələrinə yer vermişdir ki, Azərbaycan-Türkiyə ədəbi əlaqələri baxımından bu fakt xeyli əhəmiyyətlidir. Əsgər Rəsulov “Türk sənədli bədii nəsri”[13] monoqrafiyasında məktub formalı bədii nəsr nümunəsi kimi Əziz Nesinin “Taxtalı köydən məktublar” povestindən bəhs etmişdir. Tofiq Məlikli türk ədəbiyyatı ilə bağlı tədqiqatlarında Əziz Nesin yaradıcılığını da araşdırmış, eyni zamanda əsərlərinin tərcüməsi ilə də məşğul olmuşdur[14]. Çingiz Hüseynov “Keçmişin qarşılanması”[15] adlı xatirələr kitabında Əziz Nesinlə bağlı qeydlərinə də yer ayırmışdır. Qılman İlkinin “Türk yazıçıları Bakıda”[16] kitabında Əziz Nesinin digər türk ədibləri ilə birlikdə Azərbaycana etdiyi səfərdən bəhs etməsi Azərbaycan-Türkiyə ədəbi əlaqələri haqqında mənbə rolunu oynayır. Sevil Hüseynova 2015-ci ildə “Ədəbiyyatda tarixi və müasir gerçəkliyin bədii inikası problemi (Seyfəddin Dağlının yaradıcılığı əsasında)”[17] adlı dissertasiyasında Seyfəddin Dağlının

---

[11] Бабаев, А. Творческие проблемы турецкой драматургии республиканского периода: 1923-1983 г.г. (Социальные мотивы): / дис. д-ра филол. наук. / – Баку, 1994, – 314 с.

[12] Babayev, A. Nazim Hikmət qalaktikası / A.Babayev. –Bakı: Elm və təhsil, – 2016. – 327 s.

[13] Rəsulov, Ə. Türk sənədli bədii nəsri / Ə.Rəsulov. – Bakı: Elm, – 2004. – 428 s.

[14] Меликов, Т. Сатира и юмор Турции: Сборник: Пер. с тур./ составл. и послесл Т.Меликова. — Москва: Радуга, – 1991. – 496 с.

[15] Гусейнов, Ч. Минувшее - навстречу. Мемуарное повествование. / Ч.Гусейнов – Москва: Флинта, – 2009. – 712 с.

[16] İlkin, Q. Türk yazıçıları Bakıda / Q.İlkin. – Bakı: AzAtaM, – 2007. – 40 s.

[17] Hüseynova, S. Bədii nəsrdə tarixi və müasir gerçəklik / S.Hüseynova. – Bakı: Elm və təhsil, – 2017. – 173 s.

“Türkiyə novellaları” silsiləsindən bəhs edərkən Əziz Nesinin adını çəkərək ona ithafən yazıldığını qeyd etmişdir. Sədaqət Qasımlı “Türkiyə ədəbiyyatında yeni hekayəçilik (XIX əsrin ikinci yarısı)”[18] monoqrafiyasında Əziz Nesinin hekayəçiliyi haqqında bəhs etmiş, kitablarının adlarını çəkmişdir. Gülbəniz Babayeva “Molla Nəsrəddin” jurnalı və milli ədəbi dəyərlər”[19] adlı monoqrafiyasında Əziz Nesinin həmtəsisçisi və əsas mühərriri olduğu “Marko paşa” qəzetinin fəaliyyət istiqamətlərindən bəhs etmişdir. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun hazırladığı “Molla Nəsrəddin ensiklopediyası”nda[20] Vəfa Babasoyun müəllifi olduğu Əziz Nesin haqqında oçerk də öz layiqli yerini almışdır. Bütün bunlardan başqa satirik sənətkarın həyatı və yaradıcılığı ilə bağlı bir sıra publisistik məqalələr də işıq üzü görmüşdür.

Qeyd edək ki, sovet dövründə vahid elmi dairə çərçivəsində rus şərqşünasları da Əziz Nesinin yaradıcılığını tədqiq etmişlər. Nelli Yakovlevanın “Əziz Nesinin satirik novellaları”[21] adlı dissertasiya işi buna nümunə ola bilər.

Türkiyədə Əziz Nesin haqqında tədqiqatlar sırasında Tahir Alangu[22], Dəmirdaş Ceyhun[23], Alpay Kabacalı[24], Önər Yağcı[25], Firudin

---

[18] Qasımlı, S. Türkiyə ədəbiyyatında yeni hekayəçilik (XIX əsrin ikinci yarısı-XX əsr) / S.Qasımlı. – Bakı: AFPoliqrAF, – 2019. – 272 s.

[19] Babayeva, G. “Molla Nəsrəddin” jurnalı və milli ədəbi dəyərlər / G.Babayeva. – Bakı: Elm və təhsil, –2020. – 416 s.

[20] “Molla Nəsrəddin” ensiklopediyası / tərtib edəni və çapa hazırlayan: V.Əhməd. – Bakı: Elm, –2020. – 466 s.

[21] Яковлева, Н.С. Сатирические новеллы Азиза Несина / Н.С.Яковлева. – Ленинград: Изд. Ленинградского университета, − 1977. − 127 с.

[22] Alangu, T. Cumhuriyyetden sonra hikaye ve roman [3 clddə] / T.Alangu. – İstanbul matbaası, – c.3 (1940-1950) – 1965. – 863 s.

[23] Ceyhun, D. Çağımızın Nasrettin Hocası Aziz Nesin / D.Ceyhun. – İstanbul: Milliyet yayınları, – 1984. – 184 s.

[24] Kabacalı, A. Gözyaşından gülmeceye Aziz Nesin / A.Kabacalı. – İstanbul: Çağdaş yayınları, – 1995. – 256 s.

[25] Yağcı, Ö. Aziz Nesin aydınlığı / Ö.Yağcı. – İstanbul: Engin yayıncılık, –1997. – 160 s.

Andaç[26], Ataol Bəhramoğlu[27] tərəfindən yazılan kitablar diqqətəlayiqdir. Səma Göktaş[28], Dilək Tunalı[29], Selda Buğrul[30], Fatma Balaban[31], Nilsu Ak[32], Engin İspir[33], Musa Demir[34], Seval Şahin[35], Eda Tanyıldızı[36], Duyğu Koçak[37] və b. türk tədqiqatçılar Əziz Nesin yaradıcılığını müxtəlif aspektlərdən magistr və doktorluq dissertasiyaları səviyyələrində elmi araşdırmaya cəlb etmişlər. Rusiyada doktorantura təhsili almış Mustafa Kamal Yılmaz Əziz Nesinin yaradıcılığını rus klassikləri ilə müqayisəli araşdırmaya cəlb etmişdir[38]. Həmyerlimiz Zülfiyyə Ağalarova 2023-cü ildə Türkiyənin Əskişəhər Osmanqazi Universitetində "Əziz Nesin və Mir Cəlal Paşayevin hekayələrində satira"[39] adlı magistr dissertasiyası müdafiə etmiş, hər iki sənətkarın

---

[26] Andaç, F. Gülen düşünce, muhalif kimlik: Aziz Nesin / F.Andaç. – İstanbul: İnkılap kitabevi, – 2015. – 304 s.

[27] Behramoğlu, A. Aziz Nesinli anılar / A.Behramoğlu. – İstanbul: Tekin yayınları, –2016. – 144 s.

[28] Göktaş, S. Türk tiyatrosunda soyutlama kavramı ve Aziz Nesinin soyutlamaya dayanan oyunları: / Yüksek lisans tezi / – İzmir, 1995. – 214 s.

[29] Tunalı, D. Türk sinemasında Aziz Nesin uyarlamaları aracılığıyla; tarihsel, toplumsal ve kültürel yapılanmaların araştırılması: / Yüksek lisans tezi /– İzmir, 1998. – 158 s.

[30] Buğrul, S. Aziz Nesinin öykü ve romanlarında devlet-birey çatışması: / Yüksek lisans tezi / – Sivas, 2004. – 204 s.

[31] Balaban, F. Aziz Nesinin Hikayelerinde yapı ve tema: / Yüksek lisans tezi / – Afyonkarahisar, 2006. – 205 s.

[32] Ak, N. Aziz Nesinin öykü ve romanlarında çocuk ve eğitim teması: / Yüksek lisans tezi / – Çanakkale, 2006. – 118 s.

[33] İspir, E. Aziz Nesinin romanları üzerine: / Yüksek lisans tezi / – Konya, 2006. – 292 s.

[34] Demir, M. Topluma yönelik eleştiri yöntemleri açısından Aziz Nesin romancılığı: / Doktora tezi / – Ankara, 2010. – 423 s.

[35] Şahin, S. Aziz Nesinin öykülerinde sosyal eleştiri (1946-1960): / Yüksek lisans tezi / – Kocaeli, 2012. – 535 s.

[36] Tanyıldızı, E. Aziz Nesinin romanlarındakı folklorik unsurlar: / Yüksek lisans tezi / – Elazığ, 2015. – 474 s.

[37] Koçak, D. Aziz Nesinin seçilmiş romanlarında mizah / Yüksek lisans tezi / – Adana, 2019. –134 s.

[38] Йылмаз, М. К. Традиции русского комизма в малой прозе Азиза Несина: /автореферат дис. канд. фил. наук /–Москва, 2014. –18 с.

[39] Aghalarova, Z. Aziz Nesin ve Mir Celal Paşayevin hikayelerinde mizah / Yüksek lisans tezi / – Eskişehir, 2023. – 110 s.

oxşar mövzulu hekayələrini qarşılıqlı müqayisəli təhlil etmişdir.

Tədqiqat işində Əziz Nesin və XX əsrin 60-80-ci illərində Azərbaycan satirasının ortaq tənqid hədəfləri araşdırılır, eyni dövrdə qardaş Türkiyə ilə Azərbaycan cəmiyyətindəki sosial-ictimai problemlərin satirik nəsrdə inikası qarşılıqlı təhlil olunur. Bununla yanaşı, dünyaca məşhur satirik ustad olan Əziz Nesinin Azərbaycanla ədəbi əlaqələri və sənətkarın satirik bədii nəsrimizdə təsiri tədqiq olunur.

Dissertasiyada qeyd etdiyimiz müəlliflərin monoqrafiya və məqalələrinə istinad olunmaqla elmi-nəzəri mənbə kimi onlardan istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Əziz Nesin yaradıcılığı çox məhsuldar və janr baxımından çoxşaxəlidir. Tədqiqat işində bu fakt, bununla yanaşı müqayisə obyektlərinin janrı nəzərə alınaraq Əziz Nesinin hekayələri və "Taxtalı köydən məktublar" povesti təhlilə cəlb edilir. Qarşılıqlı olaraq XX əsrin 60-80-ci illər Azərbaycan satirik nəsrinin aparıcı nümayəndələri olan Seyfəddin Dağlının hekayələri, "Absətəli avsaytdadır" povesti, Anarın "Molla Nəsrəddin-66" hekayələr silsiləsi, "Yaxşı padşahın nağılı" hekayəsi tədqiqat obyektini təşkil edir.

Tədqiqatın predmetini isə Əziz Nesinin satirik nəsri ilə XX əsrin 60-80-ci illər Azərbaycan satirik nəsri arasında olan tipoloji oxşarlıqlar (Seyfəddin Dağlı və Anarın satira yaradıcılıqları əsasında) təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Əziz Nesinin türk satirik ədəbiyyatında tutduğu yeri müəyyənləşdirmək, əsərlərinin özünəməxsus xüsusiyyətləri tədqiq edilməklə 1960-80-ci illər Azərbaycan satirik nəsrinə təsiri və ortaq tənqid hədəflərini aydınlaşdırmaqdır.

Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

-Türk satirik ədəbiyyatının və satirik bədii nəsrinin formalaşmasını izləmək;

- Əziz Nesinin türk ədəbiyyatı tarixində satirik yazı üslubuna qatdığı özəllikləri müəyyənləşdirmək;

- Türk siyasi satirasının yaranmasını, xüsusilə də "Marko paşa" qəzetinin nəşrə başlamasını zəruri edən amilləri əsaslandırmaq;

-Əziz Nesinin satirik bədii düşüncəsinin qaynağını, sosial məsuliyyətini dərk etməsini şərtləndirən səbəbləri araşdırmaq;

- Əziz Nesinin türk satirik ədəbiyyatına qazandırdığı yeni üslubu bədii nümunələr əsasında təhlil etmək;

-Sözügedən tarixi dövrdə Azərbaycan ədəbiyyatında satirik üslubun inkişaf xüsusiyyətlərini aydınlaşdırmaq;

-Əziz Nesinin Azərbaycanla ədəbi-mədəni əlaqələrini öyrənməklə Azərbaycan satirik nəsrinə olan təsirini araşdırmaq;

- Əziz Nesin və Seyfəddin Dağlının yaradıcılığında ortaq tənqid hədəflərini araşdırmaq;

-Əziz Nesin və Anarın yaradıcılığı əsasında xalq gülüşünün aparıcı siması olan Molla Nəsrəddin ənənələrinin XX əsrin 60-80-ci illərində satirik nəsrdə davam etdirilməsini tədqiq etmək;

-Əziz Nesinin əsərlərinin Azərbaycanda tərcüməsi və təbliği məsələlərini tədqiq etmək.

**Tədqiqat metodları.** Dissertasiya işinin hazırlanmasında müqayisəli təhlil, müqayisəli-tipoloji metodlardan istifadə edilmişdir. Əziz Nesinin hekayələri və müqayisəli-qarşılaşdırıcı mətnlər kimi istifadə edilmiş Seyfəddin Dağlı və Anarın satirik bədii mətnləri tədqiqatçıların əsərlərinə istinad edilməklə araşdırılmışdır. Tədqiqat işində araşdırmaya cəlb etdiyimiz satirik mətn nümunələri dissertasiyanın araşdırma mövzusu olan Azərbaycan ediblərinin tipoloji baxımdan oxşar olan əsərləri ilə müqayisəli şəkildə təhlilə cəlb edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada Əziz Nesinin satirik hekayələri və "Taxtalı köydən məktublar" povesti qarşıya qoyulan məsələləri araşdırmaq üçün təhlilə cəlb edilmişdir. Qarşılıqlı olaraq Seyfəddin Dağlı və Anarın 1960-1980-ci illərdə qələmə aldıqları satirik nəsr əsərləri Azərbaycan satirik ədəbiyyatının örnək nümunələri kimi müqayisəli tədqiq olunmuşdur. Tədqiqat işində aşağıdakı müddalar müdafiəyə çıxarılmışdır:

-XX əsrin ikinci yarısında Türkiyədəki ictimai-siyasi vəziyyət satiranın yeni forma və məzmun qazanmasına gətirib çıxarmışdır;

-Əziz Nesin ilk dəfə türk ədəbiyyatında ictimai tipli satiranı əsas yaradıcılıq üslubu kimi mənimsəyərək siyasi satiranın yaranmasında birbaşa rol oynamışdır;

-Nağıl üslubunda hekayə yazmaq ənənəsi daha öncə də türk ədəbiyyatda mövcud olsa da, Əziz Nesin ilk dəfə satirik nağıl janrında

bədii nümunələr yaratmış, bunun daha kəskin tənqid üsulu olduğunu əsərlərinin təsir gücü ilə sübut etmişdir;

-Azərbaycan ədəbiyyatında satirik nağıl üslubunda bədii mətnlər 1960-1980-ci illər nəsrimizdə müşahidə olunmaqdadır. Seyfəddin Dağlının və Anarın yaradıcılığında satirik nağıl üslubunda hekayə janrına rast gəlinməkdədir;

-XX əsrin ikinci yarısında Türkiyə və Azərbaycanda ədəbi əlaqələrin inkişafında Əziz Nesinin xüsusi rolu olmuşdur. Bu dostluq çərçivəsində Seyfəddin Dağlı Əziz Nesinin satirik üslubunda yazdığı hekayələri ilə Azərbaycan satirik nəsrini zənginləşdirmişdir;

-Əziz Nesin qələmə aldığı mövzuların çoxxətli olması səbəbilə, toxunduğu ictmai-siyasi və sosial problemlərin genişliyi onu dövrünün Molla Nəsrəddini kimi xarakterizə edilməsini şərtləndirmişdir;

-Azərbaycan satirik nəsrində Molla Nəsrəddin ənənələrinin davamı 1960-1980-ci illərdə Anarın bədii nəsrində izlənilməkdədir. Bu mənada Türkiyə və Azərbaycan satirik nəsrində ortaq tipoloji motivlər özünü aşkar şəkildə büruzə verməkdədir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işində ilk dəfə olaraq Azərbaycanda dünya şöhrətli türk yazıçısı Əziz Nesinin satirik bədii nəsri dissertasiya miqyasında elmi araşdırmaya cəlb olunur. İlk dəfə Əziz Nesin və 1960-1980-ci illər Azərbaycan satirik nəsri qarşılıqlı təhlil olunaraq tipoloji oxşarlıqlar müəyyənləşdirilir. Bu mənada aşağıdakı elmi yenilikləri əldə etmək imkanımız olmuşdur:

-Əziz Nesini satirik bədii mətn müəllifliyinə aparan həyat yolu Azərbaycanda ilk dəfə müstəqil dissertasiya işi səviyyəsində tədqiq edilmişdir;

-Əziz Nesinin ədəbi-tənqidi görüşləri Azərbaycanda ilk dəfə olaraq tədiqat işində araşdırılmaya cəlb edilmişdir;

- Əziz Nesinin bədii nəsrində aparıcı yer tutan avtobioqrafik obrazı olaraq yaratdığı yazıçı-jurnalist Həsən obrazı tədqiq olunmuş, adıçəkilən obrazın qəhrəmanı olduğu satirik əsərlər ilk dəfə müəyyənləşdirilərək təhlil olunmuşdur;

-Əziz Nesinin yaradıcılığında əhəmiyyətli yerə sahib olan "Taxtalı köydən məktublar" povesti müstəqil şəkildə dissertasiya səviyyəsində elmi araşdırılmaya cəlb edilərək avtobioqrafik ünsürlər aşkara çıxarılır;

-Əziz Nesinin satirik nağıl üslubunda yazdığı hekayələri ilk dəfə

dissertasiya səviyyəsində elmi təhlilə cəlb olunur. Qarşılıqlı olaraq Seyfəddin Dağlı və Anar yaradıcılığında yer alan nağıl üslubunda yazılmış satirik bədii mətnlər araşdırılır;

-Əziz Nesin və 1960-1980-ci illər Azərbaycan satirik nəsrində aparıcı tənqidi mövzuların oxşar tipoloji cəhətləri paralel müqayisələrlə təhlil olunur;

-Seyfəddin Dağlının yaradıcılığında Əziz Nesin satiralarının ədəbi təsiri ilk dəfə elmi araşdırmaya cəlb edilir;

-Tədqiqat işində ilk dəfə olaraq Anarın "Molla Nəsrəddin-66" satirik hekayə silsiləsi ilə Əziz Nesinin satiraları arasındakı tənqid hədəflərinin oxşarlığı aşkar olunaraq bədii mətnlər qarşılıqlı şəkildə təhlil olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində Türkiyə ədəbiyyatının ən məşhur yazıçılarından olan Əziz Nesinin yaradıcılığı geniş araşdırılmaya cəlb edildiyi üçün tədqiqatdan bu sahə ilə məşğul olan mütəxəssislər yararlana bilərlər. Tədqiqat işindən türk xalqları ədəbiyyatının, o cümlədən Azərbaycan ədəbiyyatının araşdırılmasında, müxtəlif monoqrafiya, dərslik, dərs vəsaitlərinin yazılmasında, ali məktəblərin filoloji fakültələrində mühazirə mətnlərinin hazırlanmasında istifadə edilə bilər. Dissertasiya işi eyni zamanda satira ilə bağlı tədqiqat aparan mütəxəssislər, Azərbaycan-Türkiyə ədəbi əlaqələri sahəsində hazırlanan elmi işlər, müqayisəli ədəbiyyatşünaslıq araşdırmaları üçün də mənbə ola bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmiş və İnstitutun Elmi şurasında təsdiq edilmişdir. Dissertasiyanın ayrı-ayrı müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, ölkəmizdə və xaricdə keçirilən beynəlxalq elmi konfranslarda, eyni zamanda beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (Copernicus, Dergipark) jurnallarda nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmiş, şöbənin tədqiqat istiqamətinə uyğun olaraq tamamlanmışdır.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi giriş (19.857 şərti işarə), üç fəsil (birinci fəsil iki paraqraf – 73.344 şərti işarə, ikinci fəsil üç paraqraf – 76.383 şərti işarə, üçüncü fəsil üç paraqraf – 60.561 şərti işarə), nəticə (6.991 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 237.136 şərti işarədir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsaslarından bəhs edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiya işinin **"Türk satirik ədəbiyyatında Əziz Nesin mərhələsi"** adlı birinci fəsli iki paraqrafdan ibarətdir. **"Əziz Nesinin həyatı: satira yaradıcılığını şərtləndirən amillər"** adlanan ilk paraqrafda satirik ustadın keşməkeşli həyat yolu, onu yazıçılığa aparan obyektiv və subyektiv səbəblər tədqiq olunur.

Məlumdur ki, türk satirik ədəbi düşüncəsinin ilk nümunələrinə şifahi xalq ədəbiyyatında, klassik divan poeziyasında rast gəlinir. Lakin daha geniş əhatə dairəsinə və kəskin ifşaedici gücə malik yeni tipli satirik əsərlər XIX əsrin ikinci yarısında mövcud ictimai-siyasi şərait nəticəsində yaranmışdır. Bu dövrdə həcv və satira daha çox poeziya nümunələrində özünü göstərir. XX əsrin əvvəllərindən başlayaraq yeni forma və məzmunda satirik ədəbi nümunələr yaranır, Ömər Seyfəddin, Aka Gündüz, Rəfiq Xalid Karay, Yusif Ziya Ortac, Pəyami Səfa, Səbahəddin Əli, Rəşad Nuri Güntəkin, Haldun Taner və b. kimi satiriklər nəsli yetişir. XX əsr türk satirasının ən məşhur satira ustası ünvanını qazanan sənətkar isə öz məhsuldar satirik qələmini hər üç ədəbi növdə sınayan, mindən çox hekayə, ondan çox roman və pyes, satirik şeirlər yazan, türk yazılı ədəbiyyatına ilk dəfə satirik nağıl, cizgi roman kimi yeni janrlar gətirən Əziz Nesin (1915-1995) olur.

Əziz Nesin Birinci dünya müharibəsi zamanı, Çanaqqala savaşının ən qızğın çağlarında, 20 dekabr 1915-ci ildə İstanbulun cənubunda

yerləşən Heybəli adada Əbdüləziz əfəndi və Həvva Hənifə xanımın ailəsində dünyaya gəlmişdir. Uşaqlığı Osmanlı imperiyasının çöküşü, müharibənin gətirdiyi yoxsulluq, aclıq və sıxıntılar içində keçmişdir.

Əziz Nesin düşüncə baxımından sosialist fikirli ziyalı olmuşdur. Bu fikirlərin onda yaranıb formalaşmasını isə həyat yolu ilə əlaqələndirmişdir. Ailəsinin maddi vəziyyəti çox aşağı olduğu üçün yataqxana tipli pulsuz məktəb olan Darüşşəfəqədə təhsil alması, daha sonra Çəngəlköy və Kuleli hərbi liseyləri kimi dövlətdən maliyyələşən təhsil ocaqlarında yetişmiş olması Əziz Nesində hələ uşaq yaşlarından ona bu şəraiti yaradanlara qarşı minnətdarlıq, borcluluq hissi formalaşdırmışdır.

Əziz Nesin 1946-cı ilin 25 noyabrında Səbahəddin Əlinin maliyyə yardımı ilə Türkiyədə ilk siyasi satira qəzeti olan "Marko paşa" adlı həftəlik satirik qəzet çıxartmağa nail olur. 1950-ci ilə kimi fasilələrlə cəmi 58 sayı çıxan qəzetin 16 və 17 saylarında belə bir başlıq verilir: *"Mühərrirləri polis nəzarətinə götürülmədiyi və həbs olunmadığı zamanlarda çıxır".*[40]

"Marko paşa" siyasi polis tərəfindən qadağalara, əngəllərə rəğmən ən çox satılan (70 min tirajla satışı olmuş!) mətbu orqan idi. Eyni zamanda türk satirasının inkişaf tarixində mühüm rol oynamış satirik qəzet olmuşdur.

1956-cı ildə İtaliyada 22 ölkə üzrə keçirilən Beynəlxalq yumor müsabiqəsində Əziz Nesin "Qazan mərasimi" hekayəsinə görə "Qızıl Palma" mükafatına layiq görülmüş, ardınca isə 1957-ci ildə "Fil Həmdi" hekayəsinə görə ikinci dəfə də "Qızıl Palma" mükafatını qazanmışdır. Bundan sonra Əziz Nesinin ədəbi karyerasında dönüş nöqtəsi olur. Məhz bu mükafatdan sonra beynəlxalq miqyasda adının tanınması və məşhurlaşması Türkiyədə Əziz Nesin adına olan qeyri-rəsmi nəşr qadağasının ortadan qalxmasına müsbət təsir göstərmişdir. 1957-ci ildən etibarən Əziz Nesin öz imzası ilə yazılarını çap etdirə bilmişdir. "*Əziz Nesin adına rəsmi olmayan qadağa qoyulmuşdu. Media dünyasında Əziz Nesin adı qətiyyən çəkilə bilməzdi. Elanlara belə adım yazılmır,*

---

[40] Ali, S. Markopaşa yazıları ve ötekiler / S.Ali. – İstanbul: Yapı Kredi Yayınları, – 2022. – s.202

*Əziz Nesin imzası olan heç bir elan dərc olunmurdu*”.[41]

Əziz Nesinin əlinə qələm aldığı ilk gündən qarşısına qoyduğu əsas məqsədi onun pulsuz təhsil almasında əməyi, zəhməti olan xalqına duyduğu borcluluq hissini öz vətəninə, vətəninin övladlarına olan xidməti ilə ödəməyə çalışmaq olmuşdur. Hər zaman bu borcuna görə çətinliklərlə rastlaşmış, həbs cəzası almış, sürgün edilmiş, işsiz qalmış, hətta “vətən xaini” belə adlandırılmış, bununla belə öz mübarizəsindən həyatla vidalaşan gününə qədər geri çəkilməmişdir.

**“Türk satirik nəsrinin inkişafında Əziz Nesinin rolu”** adlanan ikinci paraqrafda türk satirik nəsrinin yaranmasına təkan verən amillər, inkişaf dinamikası, Əziz Nesinin bu istiqamətdə göstərdiyi xidmətlər araşdırılır. Bu paraqrafda eyni zamanda Əziz Nesinin yaradıcılığı janrlar üzrə qruplaşdırılmış, ədəbi tənqidi görüşləri öyrənilmişdir.

Osmanlıda 1839-cu ildə Tənzimat fərmanının elanı ilə başlanan yenilənmə hərəkatı ədəbiyyatda yeni janrlarla yanaşı, ictimai tipli satiranın da yaranmasına rəvac vermiş oldu. XIX əsrdə əvvəlcə “Təqvimi-vəqai” (1831), “Cərideyi-həvadis”(1840), “Tərcümani-əhval”(1860), “Təsviri-əfkar”(1862), “Müxbir” (1866) kimi qəzetlərin nəşrə başlaması publisistik yazı üslubunu formalaşdırdı. Bunun zəminində 1870-ci ildə Osmanlıda ilk türkcə satirik mətbu yayım olan “Diyojen” qəzetinin Teodor Kasap tərəfindən yaradılması ilə artıq satirik publisistikanın əsası qoyulmuş oldu. Bu illərdə satirik yazılı ədəbiyyat məhz mətbuatda yayımlanan yazılardan ibarət olur, əsas tənqid hədəflərini isə istibdad rejimi və dövrün iqtisadi-sosial qayğıları təşkil edirdi. Daha sonralar yenə də Teodor Kasapın təsis etdiyi “Çınqıraqlı tatar”, “Xəyal”, daha sonra “Lətifə”, “Şəfəq”, “Qəhqəhə”, “Gəvəzə”, “Məddah”, “Çaylaq” kimi satirik mətbu orqanlar fəaliyyət göstərmişlər. XX əsrin ortalarında “Marko paşa”nın zamanın zərurətindən yaradılması isə yeni tipli satirik nəsri, xüsusilə satirik hekayəni və dünyada satirik gülüş ustası kimi tanınan Əziz Nesinin yaradıcılığını bu yöndə inkişaf etdirməyə zəmin yaradır.

Əziz Nesin 1944-cü ildə hərbidən ayrıldıqdan sonra “Yeddi gün”, “Qaragöz”, “Dan” kimi mətbu orqanlarla əməkdaşlıq etmişdir. Ədibin

[41] Nesin, A. Salkım salkım asılacak adamlar. Anı / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2023. – s.117

ilk kitabı 1946-cı ildə "Yumoristik hekayələr seriyası 1" başlığı ilə çap etdirdiyi 16 səhifəlik "Partiya vurmaq və partiya qurmaq" adlı broşüra-kitabdır. Həmin ərəfədə "Marko paşa"dakı sərt xarakterli çıxışlara görə Səbahəddin Əli, Əziz Nesin, qəzetin karikaturçusu Mustafa Uykusuz (Mim Uykusuz) həbs edilir. Bu hadisədən başlayaraq da Əziz Nesin ardı-arası kəsilməyən həbs cəzaları, sürgün cəzası almışdır. Kommunist müəllif kimi tanındığı üçün heç bir mətbu orqan onu işə götürmür, yazılarını nəşr etməyə cürət göstərmir, kitabını çap etməyə mətbəələr razılıq vermirdi. Ailəsini dolandırmaq məcburiyyətindən 1953-cü ildə "Marko paşa", eləcə də onun davamı kimi çıxan qəzetlərdə çap olunmuş yazılarından 14 hekayə seçir və 48 səhifə həcmində kitab tərtib edir. Kitabın adını isə "Geriyə qalan" qoyur. Özünün də qeyd etdiyi kimi: *"Çünki səkkiz illik məşəqqətli qəzetçilik fəaliyyətimdən, zamanın iqtidarlarıyla olan o amansız savaşdan sonunda qala-qala 14 hekayə qalmışdı".*[42]

Əziz Nesin yaradıcılığa hekayə ilə yanaşı sevgi şeirləri ilə də başlamış lakin yazdığı şeirləri 69 yaşına kimi nəşr etdirməmişdir. 1984-cü ildə Əziz Nesin "Sondan başa" adlı kitab hazırlayır və gənclik illərində yazdığı şeirlərini də bura daxil edir. Əziz Nesinin poetik yaradıcılığının davamını "Sevgiyə on, ölümə beş qala", "Özünü tutmaq", "Xoşca qalın", "Bir eşq var, bir də ölüm", "Sivas acısı" kimi şeirlər kitabları izləyir. Əziz Nesinin "Əziznamə" (1948) və "Həzrəti-Danqalaq" (1970) iki məşhur həcvlər kitabı da vardır. Ustad sənətkar həcvlərini poeziyasına daxil etmir və lirik şeirlərlə satirik şeirlərin fərqini belə izah edir: "*Ədəbiyyatın bir mənzum janrı olan həcvi (daşlamanı) sənət dəyəri daşımasından çox ədəbiyyat yolu ilə siyasi və sosial mücadilə silahı olaraq dəyərləndirmək daha doğru olar".*[43]

Əziz Nesin şeirlərini çap etdirməyə maraq duymamasını bir neçə səbəblə əsaslandırmışdır. Bunlardan biri Əziz Nesinin satirik nəsr ustası kimi dünyaca məşhur olması, nəzmdə isə orijinal dəst-xəttinin olmadığını düşünməsi idi. *"Çünki mən Nazimi təqlid edərək onun kimi yazırdım, ...şeirlərimdə təqlidlər olduğunun fərqinə vardım".*[44] Eyni

[42] Nesin, A. Geriye kalan / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2022. – s. 5.
[43] Nesin, A. Taşlamalar: Azizname-Hazreti Dangalak / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2013. – s.12.
[44] Nesin, A. Sora sora cennet bulunur (Söyleşiler) / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2015, – s. 212.

zamanda fikirlərinin ustadı hesab etdiyi Nazim Hikmətin ona nəsrdə daha yaxşı qələmi olduğunu, şeir yazmağı tərgitməyi tövsiyə etməsi olmuşdur.

Əziz Nesin 1955-1978-ci illər arasında roman janrında 11 əsər qələmə almışdır: “Qadın olan kişinin xatirələri” (1955), “Düyünlü dəsmal” (1955), “Qol kralı” (1957), “Erkək Səbahat” (1957), “Saçqıran” (1959), “Zübük” (1961), “İndiki uşaqlar möcüzədir” (1967), “Şirin Betüş” (1974), “Surnamə” (1976), “Yaşar nə yaşar, nə yaşamaz” (1977), “Tək yol” (1978).

Əziz Nesin dramaturgiyada da novator sənətkar olmuşdur: “Bir az gələ bilərsiniz?” “Nəsə elə, Met”, “Çiçu”, “Tut əlimdən, Rovni”, “Düdükçülərlə fırçaçıların savaşı”, “Üç Qaragöz tamaşası”, “Bir insan başı üstündə üç səsli kədər”, “Sən Qara deyilsən”, “Bir qadın üçün duet”, “Hazır ol”, “Yaşasın qovun içi”, “Toros canavarı”, “Öldür məni, canciyər”, “Bir zamanlar məmləkətin birində”, “Uğurlarımı arvadlarıma borcluyam”, “Səid Hopsəyid”, “Haqqımı ver, Haqqı”, “Zati-dövlətləri, İbiş həzrətləri” adlı pyeslərində ən diqqətçəkici məqam hadisələrin qeyri-müəyyən zaman və məkanda cərəyan etməsi, o cümlədən şəxslərin satirik məzmunlu absurd adlar daşımasıdır. Məsələn, Limia ölkəsi, Yuntabur ölkəsi, Syen, Diha, Pren, Salsi, Qara, Mateh, Met, Nek, Ri, Şöö, Keer, Kinata, Rovni, Mela, Mestini, Lanfa və b. adlı yer və obrazlar vardır. Digər cəlbedici tərəfi isə bəzi əsərlərinin ümumiyyətlə monoloq çıxış olması, bir şəxsli tamaşa yaratmasıdır.

Əziz Nesinin türk ədəbiyyatına qazandırdığı yeniliklərdən biri də ilk cizgi roman hazırlamasıdır. 1954-1960-cı illərdə “Ağbaba” jurnalında təfriqə şəklində yayımlanmış 6 cizgi romanı mövcuddur: “Dəniz aslanı”, “Nə bilim nə adası”, “Bərbər Nanoş”, “Xanım Aynur ilə cənab Buyur”, “Subaylıq sultanlıqdır”, “Ata mirası”. Əziz Nesin operativliyinə görə satirik hekayələri, qafiyəli olduğu üçün daha asan yadda qalması və satirik gülüşünün kəskinliyini itirməməsinə görə isə həcvlərə üstünlük vermişdir. Burdan da aydın olur ki, Əziz Nesin türk satirik ədəbiyyatında yeni bir mərhələ yaratmışdır. “Marko paşa” ənənəsi ilə davam edən siyasi satira, zəngin bədii irsinin davamı kimi inkişaf edən türk satirik ədəbiyyatı bütövlükdə dünya ədəbi təcrübəsində Əziz Nesin imzasını bədii gülüş ustası kimi təsdiqləyir.

Dissertasiyanın ikinci fəsli **“Bədii gülüş ictimai-sosial**

**qüsurlarla mübarizə silahı kimi"** adlanır və üç paraqrafdan ibarətdir. **"Əziz Nesinin yaradıcılığında avtobioqrafizm"** adlı birinci paraqrafda Əziz Nesinin gülüşünün əsas mövzu mənbəyi olan həyatından götürülmüş əsərlərinin tədqiqi yer almışdır. Avtobioqrafizm nöqteyindən yanaşdıqda Əziz Nesinin satirik hekayələrinin əksəriyyətinin qəhrəmanı kimi kasıb yazıçı-jurnalist Həsən Yazman obrazı xüsusi diqqət çəkir. Həsən Yazman yazıçının qırxa yaxın hekayəsinin obrazı kimi çıxış etmişdir. "Təraşa vaxtım yoxdur", "Hansı mahnını istəyirsiniz", "Deməli elə, Mustafa bəy" "İnək doğan milçək", "Böyük mükafat", "Saatınız neçədir, cənab?", "Həsən bəyin kitabı çıxdı" və s. hekayələrin əksəriyyətində Həsən Yazman böyük ailəsi ilə kirayədə qalan, maddi sıxıntı çəkən yazıçı və qəzet müxbiridir. Həsən Yazmanın baş obraz kimi çıxış etdiyi bu hekayələrdə oxşar süjet xətti özünü büruzə verməkdədir.

Əziz Nesinin 1957-ci ildə qələmə aldığı "Ölmüş eşşək" adlı povestini ictimai və siyasi sferadakı pozuntulara hərtərəfli ayna tutduğu üçün zənnimizcə, satirik ustadın yaradıcılığının manifesti hesab etmək olar. "Ölmüş eşşək" satirik povesti 23 məktubdan ibarətdir. Azərbaycan dilinə bəzi ixtisarlarla 19 məktubla "Taxtalı köydən məktublar" adı ilə çevrilmişdir.

Povestin süjeti yoxsul və sıxıntılı həyatından bezib canına qəsd etmək istəyən "eşşəyin" intiharı, dəfn olunduqdan sonra "taxtalı köy"ə (xalq arasında qəbir evi kimi anlaşılır) getməsi, ardınca isə axirət mühakiməsi zamanı başına gələnləri dostu "eşşəkarısına" məktub vasitəsilə nəql etməsindən ibarətdir. Əsər ilk sətirlərindən alleqorik povest kimi başa düşülür. Lakin oxuduqca anlaşılır ki, baş qəhrəman olan eşşək alleqorik obraz deyil, həmişə zəhmət çəkib ağır işlərdə istifadə edilən, qarşılığında isə hörmət göstərilməyib alçaldılan bu cəfakeş heyvanla insan həyatının eyniləşdirilməsi, yaşayışının kinayə ilə təqdimidir. Əsər boyu adı çəkilməsə belə, satirik sənətkar Həsən Yazmanı təsvir etmiş, ölmüş eşşəyin uğursuz taleyi ilə onun həyatını paralelləşdirmişdir. Yazıçı Həsən Yazman obrazının prototipi qeyd etdiyimiz kimi satirik ustadın özüdür. Eşşəkarısı obrazı isə Əziz Nesin qələminin simvoludur. Əziz Nesinin satirik qələmi dövrünün naqisliklərini və eybəcərlikləri ifşa etmək yolunda kəskin bir silah, iti bir iynə olmuş, ədalətsizliyə, rüşvətxorluğa yol açanları daima sancmışdır.

Hadisələr fonunda biz XX əsrin ortalarında Türkiyə ictimai-siyasi həyatının, eyni zamanda bu günümüz üçün də aktual olan sosial-ictimai problemlərin satirik bədii əksini görürük.

İkinci paraqraf **"Satiralarında aparıcı mövzular"** adlanır. Əziz Nesini bütün yaradıcılığı boyu onu düşündürən əsas məsələ ziyalıların cəmiyyət qarşısında olan məsuliyyətlərini dərk etmələri, xalqın daha yüksək mərtəbəyə gəlib çatmasında onların öhdəsinə düşən vəzifələrini xatırlatmaq olmuşdur. *"Ziyalının, xüsusilə, türk ziyalısının başqa bir önəmli xüsusiyyəti onu ziyalı səviyyəsinə yüksəltmiş olan xalqına borclu olduğunu duymasıdır; maddi baxımdan ödənməsi mümkünsüz olan bu borcu beynində, vicdanında duyub ödəməyə çalışan kəsdir ziyalı"*.[45] Bu baxımdan, ziyalı problemi Əziz Nesin satiralarında aparıcı istiqamət olmuş, müxtəlif mövzulu hekayələrində, o cümlədən romanlarında bu məsələyə həssaslıqla toxunmuşdur.

Yaradıcılığında geniş yer verdiyi evsizlik və bununla bağlı insanların qarşılaşdığı ziddiyyətli məqamlar məhz onun uşaqlıq illərində çox kirayə ev dəyişmələri, gözünü dünyaya açdığı vaxtdan bu problemlə daima üz-üzə qalmaları ilə bağlı idi. Satirik sənətkar kirayədə yaşamaq məcburiyyətində qalan, ev sahibi olmağa çalışıb maddi gücü çatmayan insanların həyat şəraitini təsvir edən bir çox başqa hekayələr də qələmə almışdır. *"Qədimdə Orta Asiyadan köç etmişik; yüzillərlə üç qitə üstündə köçümüz davam edib, çox geniş köç sahəmiz var imiş. Sonra sıxışıb qalmışıq damdar yerə... O damdar yerə də yerləşə bilməmişik, yenə köçəriyik. Türk xalqı öz yurdunda hələ də köçəridir"*.[46] "Toros canavarı", "Sən halına şükür elə", "Bülbül yuvası evləri", "Allah qəbul eləsin" kimi əsərləri bu mövzunun tənqidinə həsr etdiyi ən təsirli hekayələrindəndir.

Əziz Nesin siyasi mövqeyinə görə həmişə polislər tərəfindən nəzarətdə olmuşdur. Həm bu səbəbdən, həm də dövrünün hüquq-mühafizə sisteminin zəifliyindən, daha doğrusu sistemsizliyindən narazı olduğu üçün bir sıra hekayələrində məhz polislərin iş rejimini ("Fil Həmdi necə tutuldu?", "Vətən borcu", "Dəlilər qaçdı", "Çəngəldən çıxış yoxdur" və b.) tənqid etmişdir. Tədqiqat işinin bu paraqrafında Əziz

[45] Nesin, A. Soruşturmada (sorulara yanıtlar-belgeler) / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2013. s.9.

[46] Nesin, A. Böyle gelmiş, böyle gitmez / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2017. – 840 s.

Nesinin məzmun baxımından qruplaşdırılmış satirik hekayələri təhlil edilmişdir.

İkinci fəslin üçüncü paraqrafı "**Satirik nəsrdə novatorluq: nağıl-hekayələr"** adlanır. Əziz Nesin türk ədəbiyyatına ilk dəfə foto-roman və nağıl üslubunda yazılmış hekayələri gətirmişdir. Dünya ədəbi təcrübəsində satirik nağıl ənənəsi Əziz Nesindən daha əvvəl mövcud olmuşdur. Təsadüfi deyil ki, XIX yüzillikdə E.Hofman, V.Hauf kimi dünyaca məşhur alman yazıçıları, eləcə də rus yazıçısı Mixayıl Saltıkov Şedrin ictimai qüsurları kəskin ifşa üsulu kimi satirik nağıla müraciət etmişlər. Əziz Nesinə görə, nağıl formatı hekayələrə nisbətən insanları düşündürmək baxımından daha effektlidir. Bu cəhətinə görə də ədib nağılları daha üstün satirik "silah" hesab edir. Digər tərəfdən yanaşdıqda isə nağıllarda gizlilik, ictimai-sosial və iqtisadi-siyasi qüsurları üstüörtülü şəkildə daha rahat tənqid etmək imkanı olur. Əziz Nesin 1970-ci ildə "Yeni ədəbiyyat" jurnalına verdiyi müsahibəsində nağıl üslubunda yazdığı satiraları haqqında danışarkən qeyd edirdi: *"oxucular üzərində elə bir təsiri olur ki, o mövzunu siz açıq-aşkar söylədiyiniz zaman o qədər təsirli olmur".*[47]

Əziz Nesin "böyüklər üçün nağıllar" adlandırdığı satirik nağıllarını "Məmləkətin birində" (1958) və "Hoptrinam" (1960) kitablarında toplamışdır. Bunlarla yanaşı "Böyük tətil" (1978) adlı kitabındakı bəzi hekayələrdə nağıl üslubundan istifadə etmişdir. Əziz Nesinin nağıl üslubunda yazdığı bu əsərlərdə qaynaq kimi nağıllardan, təmsillərdən, lətifələrdən, rəvayətlərdən istifadə olunmasına baxmayaraq, ədibin öz fərdi təxəyyülünün məhsulu olan yeni tipli satiralardır. Əziz Nesin qələmə aldığı satirik nağıllarında həm Qərb, həm də Şərq xalq nağılları motivlərindən bəhrələnmiş, müasir cəmiyyətdəki qüsur və nöqsanları nağıl yolu ilə ifadə etmişdir. Xalq nağılların əsas xüsusiyyəti xalqın arzu etdiyi ədalətli cəmiyyət, xeyrin şər üzərində qələbəsi, ideal həyat şəraiti kimi istəklərin bədii əksidir. Bu cəhətdən, xalq nağılları xoşbəxt sonluqla, ədalətin bərqərar olması ilə bitir. Əziz Nesin isə nağıl-hekayələrində nağıl janrının düşündürmə, maarifləndirmə funksiyalarını əsas tutaraq tənqid hədəfi kimi seçdiyi

---

[47] Nesin, A. İnsanlar konuşa konuşa (söyleşiler) / A.Nesin. – İstanbul: Nesin yayınevi, – 2018. – s.188

obrazlarını satirik gülüş hədəfinə çevirərək ifşa edir, komik vəziyyətə düşdüklərini təsvir edir.

Dissertasiyanın üçüncü fəsli "**Əziz Nesin və Azərbaycan ədəbi əlaqələri"** adlanır. Bu fəsil üç paraqrafdan ibarətdir. İlk paraqrafı **"Əziz Nesin və Azərbaycan ədəbi-mədəni mühiti"**nə həsr olunmuşdur. Əziz Nesin 1965-ci ildə ilk dəfə pasport ala bilmiş, SSRİ-ni, o cümlədən Azərbaycanı da ziyarət etmişdi. Belə ki, həmin ilin iyun ayında Afrika Asiya Yazıçılar İttifaqlarının qurultayında iştirak üçün Məlih Cövdət Anday, Əziz Nesin və Yaşar Kamal SSRİ-nin dəvəti ilə əvvəlcə Rusiyaya, daha sonra isə Azərbaycana, Özbəkistana, Bolqarıstana və Macarıstana səfər etmişdilər. Onu da qeyd edək ki, II Dünya Müharibəsindən sonra SSRİ-yə, o cümlədən Azərbaycana gələn ilk türk ədiblər məhz bu üç sənətkar olmuşdur. Əziz Nesinin Azərbaycana böyük rəğbəti olmuş, azərbaycanlı həmkarları ilə sıx əlaqə saxlamışdır. Böyük Azərbaycan satiriki, Mirzə Ələkbər Sabirin 100 illiyi münasibətilə "Azərbaycan" jurnalının redaksiyası Əziz Nesinə məktub ünvanlamış və yubiley tədbirlərində iştirak etməsini xahiş etmişdilər. Əziz Nesin M.Ə.Sabirin "Hophopnamə"sini istəmiş, haqqında məlumat toplamış və 1962-ci ildə dərc etdiyi "Zübük" qəzetinin 32-ci sayında M.Ə.Sabir haqqında məqalə nəşr etdirmişdir. M.Ə.Sabirin yaradıcılığını yüksək qiymətləndirən Əziz Nesin məqalənin sonunda M.Ə.Sabirin məşhur "Qorxuram" şeirini türkcə və Azərbaycanca dərc etdirmişdir[48].

Dissertasiyanın bu paraqrafında Əziz Nesinin əsərlərinin Azərbaycanda tərcüməsi və nəşri məsələlərindən də bəhs olunur. İlk dəfə 1962-ci ildə Əziz Nesinin "Hekayələr" adlı kitabı "Uşaqgəncnəşr" nəşriyyatında Seyfəddin Dağlının ön sözü ilə çap olunmuşdur. Seyfəddin Dağlı ön sözündə qeyd edir: *"Topqapı muzeyi Türkiyənin keçmişini əks etdirən köhnə bir lövhədirsə, Əziz Nesinin yaradıcılığı ölkənin bu gününü göstərən yeni bir güzgüdür"*[49].

Azərbaycanda Əziz Nesinin dram əsərləri də hələ sovet dövründən Azərbaycan səhnələrində nümayiş olunmuş, uzun illər teatr repertuarlarında yer almış və bu proses hələ də davam etməkdədir. "Toros canavarı", "Sizi olarmı?", "Öldür məni, canciyər" adlı tamaşalar

[48] Büyük hicivci: Mirza Alekber Sabir // Zübük. –1962, 10 eylül. – s. 4.
[49] Nesin, Ə. Hekayələr / Ə.Nesin. – Bakı: – Uşaqgəncnəşr, –1962. – s.5.

azərbaycanlı səhnə xadimləri tərəfindən uğurla ifa olunmuş, Azərbaycan-Türkiyə ədəbi-mədəni əlaqələrinin, o cümlədən böyük satira ustası Əziz Nesinin yaradıcılığına olan hörmət və sevginin göstəricisi kimi anlaşılmışdır.

Üçüncü fəslin ikinci paraqrafı **"Azərbaycan satirik ədəbiyyatında Əziz Nesin yaradıcılığının təsiri və Seyfəddin Dağlının "Türkiyə novellaları" silsiləsi"** adlanır. XX əsr Azərbaycan ədəbiyyatının məhsuldar qələm sahiblərindən olan Seyfəddin Dağlı həyat yolu və yaradıcılıq istiqaməti baxımından Əziz Nesinlə ortaq cəhətləri ilə diqqəti cəlb edir. Əziz Nesinin satirik ənənəsinin izlərini Seyfəddin Dağlının yaradıcılığında aydın şəkildə müşahidə etmək mümkündür. Əziz Nesin yaradıcılığına xas satirik nağıl üslubuna da Seyfəddin Dağlının yaradıcılığında da rast gəlirik. Seyfəddin Dağlı 1978-ci ildə qələmə aldığı "Allahı aldatdı, iblisə aldandı" satirasını nağıl adlandırır. Yazıçı nağıl üslubundan istifadə edərək cəhənnəmə düşmüş birinin hiylə işlədib cənnətə qaçması süjeti əsasında rüşvətxor, yaltaq və həmişə başqalarına quyu qazmaqla məşğul olan adamları tənqid edir.

Seyfəddin Dağlı 1961-ci ildə "Türkiyə novellaları" başlığı altında 4 satirik-yumoristik novella ("Vitrindəki şüarda nə yazılmışdı", "Qonaq niyə dava saldı", "Kəndə qəzet nə vaxt gəldi", "Eşşək nəyə güldü?") yazmış və Əziz Nesinə ithaf etmişdir. Mövzusu Türkiyə həyatından alınan bu hekayələr şübhəsiz ki, Əziz Nesin yaradıcılığından təsirlənərək qələmə alınmışdır və türk satirikinin toxunduğu problemlər, tənqid etdiyi naqisliklər öz əksini tapmışdır.

Seyfəddin Dağlının "Absətəli avsaytdadır" adlı məşhur povestində Əziz Nesin qələminin, xüsusilə də "Qol kralı" (əsər 1988-ci ildə dilimizə "Futbol kralı" adı ilə tərcümə edilmişdir) romanının, eləcə də "Kötək yeməyə doymuram" adlı satirik hekayəsinin təsiri açıq-aşkar hiss olunur. Əziz Nesin futbol azarkeşliyini xəstəlik halına çevirən insanların həyatında bunun mənfi təsir və nəticələrini "İdmançı insanlarıq, vəssəlam", "Həmyerlilər matçda", "Uçuruma gedirik" kimi hekayələrində də tənqid etmişdir. Bu paraqrafda oxşar motivlər paralel təhlillərlə tədqiqata cəlb edilmişdir.

Dissertasiyanın son paraqrafı **"Əziz Nesinin satiraları və Anarın "Molla Nəsrəddin-66" hekayələr silsiləsi"** adlanır. Əziz Nesinin bədii gülüşünün qaynağı birinci növbədə xalq gülüşü, xüsusilə də Molla

Nəsrəddin lətifələri və nağıllar olmuşdur. Bildiyimiz kimi, Molla Nəsrəddin mürəkkəb tarixi hadisələrin baş verdiyi XIII əsrdə yaşamış və öz hazırcavablığı, baməzə xarakteri ilə tanınmış bir şəxsiyyət olmuşdur. Təsadüfi deyil ki, 1906-cı ildə görkəmli ədib və ictimai xadim Cəlil Məmmədquluzadə satirik jurnalı olan "Molla Nəsrəddin"i təsis edərkən də adını məhz bu xalq gülüş qəhrəmanından götürdü. Beləcə, XX əsrin əvvəllərində Molla Nəsrəddinin vəzifələrini başda Mirzə Cəlil özü olmaqla bu jurnal ətrafında cəmləşən satirik qələm əhli öhdələndi. Türkiyədə doğulan yeni Molla Nəsrəddin isə Əziz Nesin oldu, ölkəsində "çağdaş Molla Nəsrəddin" kimi qəbul edildi. Cəmiyyətdə özünü büruzə verən naqisliklərə, çatışmazlıqlara "tam Əziz Nesinlik" mövzu kimi yanaşıldı.

XX əsrin II yarısında, Azərbaycan ədəbiyyatında 60-cılar nəsli kimi ədəbiyyat tariximizə keçən yeni nəsil gəlir ki, SSRİ-nin yaratdığı rejimə, senzuraya qarşı ədəbi hərəkata çevrilə bilirlər. Bu illərin Molla Nəsrəddini isə Anar olur.

Əziz Nesin qeyd etdiyimiz kimi, lətifələrlə yanaşı, nağıl motivlərindən də təsirlənərək, yaxud birbaşa istifadə etməklə böyüklər üçün nağıllar yazmışdır. Bu nağıllarda təkcə türklərin deyil, bütöv bəşəriyyətin yaşamındakı naqislikləri, insan xislətinin qüsurlarını tənqid obyektinə çevirmişdir. Azərbaycan ədəbiyyatında da nağıl üslubu ilə qələmə alınmış yumoristik-satirik hekayələrə rast gəlirik. Hər nə qədər janr cəhətdən pamflet, hekayə, satirik nağıl kimi müəyyənləşdirilmişsə də, eynilə Əziz Nesin üslubunu xatırlatdığı üçün biz Anarın "Yaxşı padşahın nağılı" əsərini satirik nağıl kimi qəbul edə bilərik. Anarın bu satirik nağılı Əziz Nesinin "Sədrəzəm eşşək", "Qarğaların seçdiyi padşah" adlı satirik nağılları ilə ideya və məzmun cəhətdən də oxşarlıq təşkil edir. Bu paraqrafda Əziz Nesinlə Anarın irsindəki satirik məqamların oxşar və fərqli tərəfləri bədii nümunələr əsasında tədqiq edilmişdir.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatlar zamanı əldə olunan yekun qənaətlər öz əksini tapmışdır. Beləliklə, "Əziz Nesin və 60-80-ci illər Azərbaycan satirik nəsri (Seyfəddin Dağlı və Anar yaradıcılığı əsasında)" adlı dissertasiya işində aparılan araşdırmalar zamanı aydın olur ki, Əziz Nesinin uşaqlıq və gənclik illərində üzləşdiyi yoxsulluq, pansionat tipli dövlət məktəblərində oxuması onun kimliyində xalqına

qarşı ödənməz mənəvi borc hissini formalaşdırıb birbaşa yaradıcılığına da təsir etmişdir.

Əziz Nesin xalqının rastlaşdığı çətinlikləri güclə deyil, qələm vasitəsilə tənqid etməklə düzələcəyini ümid etdiyindən satirik üsluba yönəlmiş, Türkiyənin ilk siyasi satira yazarlarından olmuşdur. Araşdırmada Əziz Nesinin türk satirik nəsrində yeni mərhələ yaratması və bu mərhələnin özünəməxsus xarakterik xüsusiyyətləri öyrənilmişdir.

Tədqiqatın nəticəsində müəyyən edilmişdir ki, Əziz Nesin məsləkdaşı Səbahəddin Əli ilə birlikdə Türkiyədə ilk satirik siyasi mətbu orqan olan "Marko paşa"nı təsis etmiş və dövrünün naqislikləri ilə mübarizədə bu tribunadan çıxış etmişdir. Bunun nəticəsində türk ədəbiyyatında bədii gülüş yeni forma və kəskin satirik məzmun qazanmışdır.

Ədəbiyyata mətbuat vasitəsilə gəldiyi üçün Əziz Nesinin ilk bədii nəsr nümunələri publisistik üsluba uyğun olaraq özündə avtobioqrafik məzmunu daha qabarıq şəkildə ehtiva etmişdir.

Tədqiqat zamanı Əziz Nesinin 44 hekayə kitabında yer alan satiralarında aparıcı tənqid hədəfləri olaraq ziyalı təəssübkeşliyi, fırıldaqçılıq, sosial məişət problemi, dövlət idarəetməsindəki səriştəsizlik, həkim səhlənkarlığının da bir hissəsini təşkil etdiyi sosial məsuliyyət, təhsil sahəsindəki problemlər, mənəvi-əxlaqi qüsurlar olduğu ortaya çıxarılmışdır.

Əziz Nesinin türk ədəbiyyatında ilk dəfə satirik nağıl üslubunda hekayələr yazması, alleqorik obrazları vasitəsilə daha kəskin satirik məzmun yaratmağa nail olması qənaətinə gəlinmişdir.

Əziz Nesin yaradıcılığında satirik məzmunu daha qabarıq şəkildə əks etdirmək, daha kəskin ifşaedici güc əldə etmək üçün axirət dünyası təsvirləri, vəfat etmiş insanın başına gələnlərin əksi ("Taxtalı köydən məktublar", "Üç dəfə ölən birinin dördüncü dəfə niyə dirilmədiyinin əhvalatı") kimi diqqət çəkən məqamlar öyrənilmişdir.

Tədqiqat zamanı müəyyən edilmişdir ki, Seyfəddin Dağlı ilə Əziz Nesinin yaradıcılığında oxşar motivlər vardır. Belə ki, Əziz Nesinin idman mövzulu satirik əsərləri ilə Seyfəddin Dağlının "Absətəli avsaytdadır" povesti arasında paralel tənqidi məqamlar müşahidə edilir. Əziz Nesinin məşhur "Futbol kralı", "Həmşəhərlilər matçda", "Uçuruma gedirik", "Kötək yeməyə doymuram" və s. hekayələrində də idman

azarkeşlərinin bir-birinə verdiyi zərərlər tənqid edilir.

Əziz Nesin və Anar yaradıcılığında paralel tənqidi mövzuların, yaxınlıqların olmasını biz hər iki qardaş ölkənin XX əsrin 60-80-ci illərində eyni ictimai, mənəvi qüsurların həlli uğrunda satirik əsərlərin yaradılmasında görürük. Hər iki sənətkar öz dövrünün Molla Nəsrəddini funksiyasını yerinə yetirmişdir; Anarın "Rəng", "Məlumat", "Kəlam qonaqlığı", "Maraqlı tədqiqat", "Yaxşı padşahın nağılı" kimi satirik hekayələrində tənqid etdiyi mövzular uyğun olaraq Əziz Nesinin "Böyük adamın qardaşı oğlu", "Ay onun adı batsın", "Saatınız neçədir, cənab?", "Şərməndi nə vaxt doğulmuşdur", "Sədrəzəm eşşək", "Qarğaların seçdiyi padşah" və s. satiralarında müşahidə edilmişdir.

Dissertasiya işinin yekununda XX əsrin 60-80-ci illərində Türkiyə və Azərbaycanda fərqli siyasi quruluşun mövcudluğuna baxmayaraq, hər iki qardaş xalqın ədəbiyyatında paralel mövzuların satirik bədii nəsr mövzusu kimi işləndiyi qənaətlərinə gəlmiş oluruq.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**


1. Axundova, M.M. Əziz Nesin satiralarında ziyalı problemi // – Bakı: Gənc tədqiqatçı, – 2018. (IV) №2, – s.135-141.
2. Axundova, M.M. Əziz Nesin yaradıcılığında avtobioqrafik ünsürlər // Dedicated to the 95th Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev, II International Scientific Conference of Young Researchers, – Baku: BEU, – 27-28 April, – 2018, – s.1325-1326.
3. Axundova, M.M. XX əsrin II yarısında türk və Azərbaycan satirasında ortaq tənqid hədəfləri (Əziz Nesin və Anar yaradıcılığı əsasında) // IV Uluslararası Türk Kültür Coğrafiyasında Eğitim ve Sosyal Bilimler Sempozyumu 27-30 Haziran Bakü, Azerbaycan (TURKCESS 2018) Kongre Özet Kitabı, – Ankara: Tebad, – 2018, – s.55.
4. Həsənli, M.M. Seyfəddin Dağlı yaradıcılığında Əziz Nesin satiralarının təsiri // – Bakı: Gənc tədqiqatçı, – 2019. (V) №2, – s.204-209.

5. Həsənli, M.M. Seyfəddin Dağlı yaradıcılığında Əziz Nesin satiralarının təsiri // Uluslararası "Türk Dünyasında Millî Mücadele Ve Edebiyat" 12-15 Haziran 2019 Bakü, Azerbaycan Sempozyumu Bildirileri, – Ankara: Türk Dil Kurumu yayınları, – 2022, – s.201-206.
6. Həsənli, M.M. Nazim Hikmətin bioqrafiyası Əziz Nesinin araşdırmalarında // Nazim Hikmət – 120 mövzusunda Beynəlxalq Elmi Konfransın tezisləri, – Bakı: AMEA Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, – 2023, – s.45.
7. Həsənli, M.M. Əziz Nesinin idman mövzusunda yazdığı satiralarında tənqid hədəfləri // – Bakı: Müqayisəli Ədəbiyyatşünaslıq, – 2023. №2, – s.153-157.
8. Hasanli, M. M. The Fable Style In Aziz Nesin's Satires // – Київ: Вчені записки ТНУ імені В. І. Вернадського. Серія: Філологія. Журналістика, –2024. Том 35 (74) № 2 Частина 2, – с.55-60.
9. Həsənli, M.M. Əziz Nesinin "Marko paşa" fəaliyyəti // AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Asiya xalqları ədəbiyyatı: ənənələr və müasir tendensiyalar 16 dekabr 2024 Beynəlxalq elmi konfransının materialları, – Bakı: Elm və təhsil, – 2025, – s. 49-53.
10. Həsənli, M.M. Əziz Nesinin "Taxtalı köydən məktublar" povestində alleqoriyanın tərs üzü // – Bakı: Gənc tədqiqatçı, – 2025. (XI) №1, – s. 34-38.
11. Həsənli, M.M. Əziz Nesin satiralarında avtobioqrafizm: Həsən Yazman prototip kimi // – Gəncə: Xəbərlər məcmuəsi, İctimai və Humanitar elmlər seriyası, – 2025. (11) №1, – s.118-123.
12. Hasanlı, M.M. XX yüzyılın 60'lı yıllarında iki Nasreddin Hoca: Aziz Nesin ve Anar // Akademik Ubaydulla Karimov tavalludining 105 yilligi munosabati bilan o'tkazilgan xalqaro ilmiy konferensiya materiallari to'plami, – Toshkent: Fan, – 2025, – b. 499-505.

Dissertasiyanın müdafiəsi 9 oktyabr 2025-ci il tarixində saat 15^00-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.
Ünvan: AZ 1073. Bakı ş., Hüseyn Cavid prospekti 117, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elekton Akt zalı.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 5 sentyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.06.2025.

Kağızın formatı: A5

Həcm: 44137

Tiraj: 100 nüsxə